*İsmayıl bəy Qutqaşınlı*

# Ölməz insan

Çoxdandır İsmayıl bəy Qutqaşınlı haqqında məqalə yazmaq istəyirdim. Amma Qutqaşınlı kimi həyat yolu keçməkeşli olan insan haqqında, eyni zamanda mürəkkəb və maraql həyat yolu keçmiş həmyerlimiz olan bu insan haqda böyük bir kitab yazmaq olar.



Çar Rusiyası Azərbaycanı işğal etdikdən sonra hər bəy-xan, soltan ailəsindən bir uşaq girov məqsədilə Peterburqa aparılırdı. Rusiyadan gələn nümayəndə İsmayılın gözəl at çapmağına, qılınc oynatmağına, anası Bədircahan xanımın ona öyrətdiyi rus və fransız dillərini başa düşməsi kiçik olmasına baxmayaraq savadlı və hazırcavab, incə ruhlu həssas uşaq olmasını gördü və beş qardaşın ən kiçiyi olan İsmayılı özü ilə Peterburqa apardı. 10-12 yaşı olan İsmayıl bəy Hacınəsurrula Soltan oğlu Qutqaşınlı hərbi kadet məktəbinə daxil oldu. 1822-ci ildə Gürcüstan qrenadyor alayında hərbi qulluğa başladı. Həmin il ilk döyüşçü rütbəsi alaraq podpraporşik olur. Çar ordusunda 30 il xidmət edən İsmayıl bəy Qutqaşınlı çox müharibələrdə iştirak edir, 15-dən çox medal və ordenlərlə təltif olunur, qısa vaxtda podpolkovnik, polkovnik, general-mayor rütbəsinə qədər qalxır. Rusiyada, Varşavada, Tiflisdə və Qafqazda böyük şöhrət qazanır. Xidmətdən sonra vətənə qayıdan İsmayıl bəy Qutqaşınlı Şamaxıda Bəy komissiyasında işləyir.

İsmayıl bəyi həyat general-mayor rütbəsinə qədər qaldırdı. Bu Azərbaycanlı olan ilk general mayor idi. Lakin onun ürəyi heç də hərbçi ürəyi deyildi, bu həssas qəlbli insan «Rəşid bəy və Səadət xanım» əsərinin müəllifidir. İsmayıl bəy bu hekayəsi ilə Azərbaycan realist nəsrinin bünövrəsini qoydu. Əsər Varşavada 1835-ci ildə fransız dilində çap olunur. Onun general-mayor A. İ. Filosova Varşavadan yazdığı məktubu epictolyar janrda yazılmışdır. «İki quşun söhbəti», (X.Məmmədov tapmışdır). Səfərnamə əsəri bizə sübüt edir ki, onun bu kimi əsərləri çox olmuşdur. «Misgin» ləqəbi ilə yazdığı əsərləri məhv edilmiş, bizə çatmamışdır. Lakin İ.Qutqaşınlı tarixə yazıçı, hərbçi səyyah, coğrafiyaşünas, maarifçi və kənd təsərrüfatçısı, islahatçsı, din xadimi kimi düşmüşdür. O, xalqın yaddaşında general-mayor, kənd təsərrüfatı cəmiyyətinin üzvü, Peterburqun deputatı, 2 dəfə Məkkə-Mədinəni ziyarət etmiş, Şamaxıda və Qutqaşında kasıb müsəlman uşaqlar üçün məktəb açmış yeddi dil bilən müəllim, şair, yazıçı olan humanist bir insan Qutqaşınlının son sultanı olan Nəsurula Soltanın oğlu İsmayıl bəy Qutqaşınlıdır. Onun xalq üçün etdikləri zaman-zaman xalqın arasında rəvayətlər halında yaşayır. Onun adına qoşulan nəğmələr, aşıq havaları el şənliklərində oxunurdu.

Sovet hakimiyyəti qurulduqdan sonra cəmi--bəy, xan ailələrinə repressiyaya başlandı. Onun nəslindən olan bəylər də sürgün olundu. İsmayıl bəyin qorunub saxlanan böyük kitabxanası, əsərləri yandırıldı, evləri, torpaqları zəbt edildi. Hərbi rütbəsi, zərli paqonları, igidliyə görə bağışlanılmış qızıl işləməli, qılıncı, medalları, şəkilləri, yurd-yuvası yox edildi. Adının çəkilməsi belə yasaq olundu.

Amma xalqın yaddaşını yox etmək mümkün deyil. Zamanla gizli şəkildə qəlblərdə yaşayan bu insana qarşı olan sevgi yenidən üzə çıxdı. 65 il adının çəkilməsini yasaq edən hakimiyyət 1986-cı ildə yenidən xalqın haqqını özünə qaytardı.

1920-ci ildə yerlə yeksan olan bir insanın xatirələri 1986-cı ildə misqal-misqal yığıldı və onun xatirəsinə qəbri ilə üz-üzə ev muzeyi tikildi. Hal-hazırda rayonumuzda İsmayıl bəy Qutqaşınlının Xatirə ev muzeyi fəaliyyət göstərir. Biz Qəbələ camaatı böyük insanın xatirəsini yüksək tutur və onun adını özünə layiq əbədiləşdiririk.

**Çimnaz MÜZƏFFƏROVA,**
**İsmayıl bəy Qutqaşınlının ev muzeyinin müdiri.**

# ”İKT ili“ çərçivəsində maarifləndirici təlim

Ölkə başçısı cənab İlham Əliyevin “Azərbaycan Respublikasında 2013-cü ilin “İnformasiya-kommunikasiya Texnologiyaları ili” elan edilməsi ilə bağlı imzaladığı Tədbirlər Planının müvafiq bəndlərinin icrasının təmin edilməsi məqsədilə Gənclər və İdman Nazirliyinin dəstəyi və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının təşkilatçılığı ilə Qəbələ rayonunda maarifləndirici təlim keçirilmişdir.

Qəbələ rayon QHT resurs və təlim mərkəzində keçirilən təlimdə 20-dək gənc iştirak etmişdir. Tədbiri giriş sözü ilə açan rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov cənab Prezident İlham Əliyevin Sərəncamına əsasən 2013-cü ilin ölkəmizdə “İKT ili” elan olunması ilə bağlı “Tədbirlər Planı” haqqında gənclərə məlumat vermiş, tədbirin məqsədinin rayon gənclərinin İKT sahəsinə marağını artırmaq, Azərbaycanda ilk dəfə olaraq sosial şəbəkələrdən düzgün istifadə üçün zəmin yaradılması və sosial şəbəkələrin düzgün istifadəsinin təbliğ olunması olduğunu bildirmişdir.

Daha sonra tədbirin təlimçisi Dəyanət Elmansoy “Xətdə” Sosial Şəbəkə Akademiyası çərçivəsində Azərbaycanın iqtisadi-coğrafi rayonlaşmasına müvafiq olaraq 40-dan çox şəhər və rayonda sosial şəbəkələr üzrə təlimlərə start verildiyini, dünyanın ən böyük sosial şəbəkələri “Facebook”, “Twitter”, eləcə də “Youtube”-dan istifadə və bloqçuluğa geniş yer ayrıldığını bildirdi. Təlim zamanı “Mənim virtual dünyam”, “Xətdə Facebook”, “Xətdə Twitter”, “Xətdə Bloq”, “Xətdə Youtube” mövzularında çıxışlar edildi, gəncləri maraqlandıran suallara ətraflı cavablar verildi, video çarxlar nümayiş olundu və əyani vəsait olaraq gənclərə CD disklər və kitabçalar paylandı.

**Mübariz AĞAYEV,**
**Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**

*Bizim maraq dünyamız*

# Ordu saxlamayan ölkələr

**Solomon adaları**

Solomon adaları yüzlərlə xırda adadan ibarətdir. Ölkədə təhlükəsizliyə polis qüvvələri nəzarət edir. Hər hansı savaş çıxacağı təqdirdə isə buna Avstraliya müdaxilə edəcək.

✲ ✲ ✲

**Kosta Rika**

Ölkədə bir zamanlar ordu olub. Ancaq 1948-ci ildə prezident Jose Fiqueres Ferrer 2 min insanın ölümünə səbəb olmuş daxili çəkişmələrdən sonra ordunu ləğv edib. Amerika ölkələri qarşılıqlı anlaşmasına görə, hər hansı ölkə Kosta Rikaya hücum etsə ABŞ, Çili və Kubanın da aralarında olduğu 21 ölkə Kosta Rikanın müdafiəsinə qalxacaq.

✲ ✲ ✲

**Samoa**

Samoa da ordudan imtina etmiş ölkələr sırasında özünəməxsus yer tutur.

Bu ölkə hərbi gücə ehtiyacı yaranacağı təqdirdə Avstraliyaya müraciət etmək haqqında saziş imzalayıb.

✲ ✲ ✲

**Andorra**

Heç bir ordusu olmayan Andorra 1914-cü ildə 10 nəfərlik hərbi heyətlə Almaniyaya hücum etmək istəyib. Bunun uğursuzluğunu dərk edərək nəinki hücum planından, hətta ordudan da imtina edib. Hazırda ölkədə 240 nəfərlik hüquq-mühafizə dəstəsi var. Andorrada odlu silahı olan kişilərin polis güclərinə qatılmağı şərtdir. Bundan başqa Andorranın 3 müdafiəçisi var. Bunlar Fransa, İspaniya və NATO-dur.

✲ ✲ ✲

**Marşall adaları**

Adaların mühafizəsini ABŞ öhdəsinə götürüb. Hökumət daxili sabitliyi qorumaq üçün yalnız polis təşkilatı yaradıb.

✲ ✲ ✲

**Lixtenşteyn**

Ölkə 1868-ci ildə Avstriya-Prussiya savaşından sonra büdcəyə ziyan vurduğu üçün ordunu ləğv edib. Ölkə daxilində təhlükəsizliyi təmin etməkdən ötrü polis qurumu yaradılıb. Hazırda baş verəcək bir hücum halında ölkəni qoruyacaq heç bir hərbi sistem yoxdur.

✲ ✲ ✲

**Vatikan**

Dünyanın ən kiçik ölkəsi olan Vatikan qanunlara görə ordu yarada bilmir. Bu gün Vatikan isveçrəli mühafizəçilər tərəfindən qorunur. Onlar həm Papanı, həm də Vatikan sarayını qorumalıdır. Ölkədə jandarma qüvvələri də var. Şəhər isə ümumilkdə İtaliyanın himayəsi altındadır.